2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 3 yanvar 2015-ci il tarixli 118 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 3 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Validə Kazımova 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 117 saylı Oğuz-Qəbələ seçki dairəsindən Kərimli bələdiyyəsi üzrə müşahidəçi İsgəndərov İsgəndər İsa oğlu tərəfindən 2015-ci il yanvarın 3-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciəti nəzərdən keçirərkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsində və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulmuş şikayət vermə müddəti ötürülməklə verilmişdir.

117 saylı Oğuz-Qəbələ seçki dairəsindən Kərimli bələdiyyəsi üzrə qeydə alınmış namizəd Məsimov Zərqəm Məhəmməd oğlunun təşəbbüsü ilə təyin edilmiş müşahidəçi İsgəndərov İsgəndər İsa oğlu 2015-ci il yanvarın 03-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, həmin seçki dairəsi üzrə 22 saylı seçki məntəqəsində seçkilərin keçirilməsində qanun pozuntularının olduğunu iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci bəndinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1-ci, 2-ci, 4.1.2-ci, 6-cı və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. . 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 117 saylı Oğuz-Qəbələ seçki dairəsindən Kərimli bələdiyyəsi üzrə müşahidəçi İsgəndərov İsgəndər İsa oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 03 yanvar 2015-ci il tarixli 118 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Validə Kazımova